# Məhəmməd Tağı Sidqinin irsi yenidən araşdırılır

**Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəylinin "Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-maarifçi fəaliyyəti" kitabı nəşr olunub.**

"Sənətkarın elmi pasportu-27" seriyasında çap olunan kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Akif İmanlıdır.

Kitabda böyük maarifçi şair, nasir, görkəmli pedaqoq və ilk məktəb dərslikləri yaratmış, dövrünün tanınmış xalq müəllimlərindən biri Məhəmməd Tağı Sidqinin (1854-1903) həyatı və yaradıcılığından bəhs edilir.

Kitab giriş, "Məhəmməd Tağı Sidqinin həyatı", "Yeni nəslin inkişafında rolu", "Şeir yaradıcılığı", "Nəsr əsərləri", "Mətbuatla əlaqəsi", "Pedaqoji görüşləri və dərslikləri", "Elmə xidmət" və nəticə bölümlərindən ibarətdir.

"Elm və təhsil" nəşriyyatında çap olunan kitabın üz qabığındakı şəkil 1902-ci ildə Naxçıvan şəhərində Qurbanəli Şərifzadə tərəfindən çəkilmişdir.

***"Azərbaycan"***




Azərbaycan.- 2022.- 15 mart.- S.10.